Hüseyn KÜRDOĞLU

# Ucal, Kamalım, ucal!

*Akademik Kamal Talıbzadənin*
*75 illiyinə*

*Yetmiş beşi yola sal,*
*Ömürdən hələ zövq al.*
*Səksəni-doxsanı keç,*
*Bulanıq zamanı keç.*
*Ümman çıxsa yoluna,*
*Qəvvas ol, ümmanı keç.*
*Yüz yaşı sanma xəyal,*
*Ucal, Kamalım, ucal!*

*Qıyqacı bax zamana,*
*Gözündən qan damana,*
*Zaman gəlməz amana.*
*Sinəndə coşsun ürək,*
*Əs bahar küləyitək,*
*Divan tut kor dumana.*
*Belə dünyadan öc al,*
*Ucal, Kamalım, ucal!*

*Şaiq sənə ad verib,*
*Yurda ər övlad verib.*
*Asimanlar keçməyə*
*Yorulmaz qanad verib.*
*Hər dərdi-qəmi unut,*
*Üzünü günəşə tut.*
*Dünya boyu qanad çal,*
*Ucal, Kamalım, ucal!*

*4.11.98*

# Kamalımız var

*Neçə dərdimizə əlac gəzirik,*
*Dünyaya nə qədər sualımız var.*

*Azmarıq zamanın qaranlığında,*
*Bizim ulduzumuz, hilalımız var,*

*Qəvvasa dönərik dərd ümman olsa,*
*Baxma ki, ümmanca məlalımız var.*

*Dədə Füzulinin qanad verdiyi,*
*Durna qatarıtək xəyalımız var.*

*Tarix yaraşığı şan-şöhrətimiz,*
*Zəfər büsatımız, cəlalımız var.*

*Koroğlu qeyrəti qanımızdadır,*
*Min kərə sınanmış iqbalımız var.*

*İdrak aləminin Məcnunu bizik,*
*Hüsnün Leylisiylə vüsalımız var.*

*Görün bu məclisin çırağı kimdir,*
*Xalqa şöhrət olan Borçalımız var,*

*Şaiq babamızın yadigarıdır,*
*Sözündə eşqimiz, amalımız var,*

*O sönməz ocağın uca məşəli,*
*İlahi nur saçan Kamalımız var!*

*6.11.98*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 12 avqust.- S. 18.